Əlirza HƏSRƏT

# Qənirsiz ölüm

*(Şəhid Əkbər Hüseynlinin ruhuna)*

Şəhidlik-döyüşdən üzü ağ çıxmaq,
Şəhidlik-qənirsiz ölüm sevdası.
Başqadır hər şəhid qanından bitən,-
Çiçəyin sevdası,gülün sevdası.

Hər şəhid bir ovuc Vətən şəklidir,
Ruh tanrı elçısi,bədən şəklidir.
Tabut-şəhidlərin gedən şəklidir,
Ana laylası da dilin sevdası.

Yaralar belə çox sızıldar,göynər,
Sevən gözəllərin göz yaşı dinər.
Bayrağa bükülüb,Vətənə dönər,-
Şəhidli ulusun,elin sevdası...

***

Yarı ruh, yarı bədən,
Bitib göyərdi bu dən.
Köz götürüb Vətəndən,-
Bayraq-bayraqdır Əkbər.

Məzarı yurda sipər,
Qız-gəlin çiçək səpər.
Gəl oxu,a bəxtəvər-
Varaq-varaqdır Əkbər.

Əl atanı tətiyə,
Düşmən çıxıb itiyə.
Yenilməz şəhidliyə,-
Yaraq-yaraqdır Əkbər.

---

Türküstan.- 2021.- 9-15 fevral.- S.21.